# Azərbaycanda palliativ yardım xidmətlərinin cari vəziyyəti.

**Milli qanunvericilik.**

1. Azərbaycan Respublikasının Konstitusiyasının 41-ci maddəsinə görə hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.
2. Приказ Минздрава СССР от 25.04.1986 N 590 "О мерах по дальнейшему улучшению профилактики, ранней диагностики и лечения злокачественных новообразований"
3. “Sosial xidmətlər haqqında” Azərbaycan Respublikasının Qanunun 17-ci Maddəsinə əsasən palliativ yardım mərkəzlərinin yaradılması nəzərdə tutulub.
4. "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəaliyyət Planının 9.3.1-ci bəndinə əsasən QİX ilə bağlı ümumrespublika və yerli səviyyədə palliativ və reabilitasiya xidmətlərinin yaradılması nəzərdə tutulub.
5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 9 fevral 2006-cı il tarixli 39 saylı Qərarı: «Narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydasının və şərtlərinin, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi Qaydası»nın təsdiq edilməsi barədə və Narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydası və şərtləri, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi Qaydası

## Azərbaycanda ölümün əsas səbəbləri.

Cəmiyyətin və səhiyyə sektorunun əsas sağlamlıq yükünü təşkil edən qeyri-infeksion xəstəliklər Azərbaycanda ölüm və xəstələnmə hallarının başlıca səbəbi hesab olunur. Azərbaycan Dövlət Statistika Komitəsinin (DSK) məlumatına əsasən 2017-ci ildə ölkə üzrə ümumilikdə 57.109 ölüm halı qeydə alınmışdır. Ölüm hallarının əsas beş səbəbini qan dövranı xəstəlikləri, xərçəng, tənəffüs sistemi orqanlarının xəstəlikləri, həzm orqanlarının xəstəlikləri təşkil edibdir.

**Əsas səbəblərdən ölüm halları**

*(Şəhər və kənd yerləri üzrə - cəmi)*

| Əsas səbəblər | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|

| | | | | | |
|---|---|---|---|---|---|
| **Bütün səbəblərdən ölənlərin sayı, nəfər** | **54 383** | **55 648** | **54 697** | **56 648** | **57 109** |
| onlardan: | | | | | |
| - qan dövranı sisteminin xəstəliklərindən | 34 379 | 33 291 | 32 825 | 34 093 | 33 663 |
| - yenitörəmələrdən | 6 383 | 6 982 | 7 278 | 8 252 | 8 665 |
| - tənəffüs sistemi xəstəliklərində | 1 529 | 1 971 | 1 712 | 1 815 | 1 839 |
| - travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən | 2 234 | 2 827 | 2 646 | 2 731 | 2 769 |
| **Bütün səbəblərdən ölənlərin sayı, əhalinin hər 100 000 nəfərinə** | **585,0** | **591,1** | **574,0** | **587,8** | **586,7** |
| onlardan: | | | | | |
| - qan dövranı sisteminin xəstəliklərindən | 369,8 | 353,6 | 344,5 | 353,7 | 345,8 |
| - yenitörəmələrdən | 68,7 | 74,2 | 76,4 | 85,6 | 89,0 |
| - tənəffüs sistemi xəstəliklərindən | 16,4 | 20,9 | 18,0 | 18,8 | 18,9 |
| - travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən | 24,0 | 30,0 | 27,8 | 28,3 | 28,4 |




**Əhalinin bədxassəli şişlərlə xəstələnməsi.**

| | 2005 | 2010 | 2015 |
|---|---|---|---|
| İlk dəfə qoyulmuş diaqnozla qeydə alınmış xəstələrin sayı - cəmi, nəfər | 6 277 | 7 626 | 10 183 |
| Müalicə-profilaktika müəssisə-lərində qeydiyyatda olan xəstələrin sayı - cəmi | 23 088 | 28 052 | 40 653 |

**İİV/QİÇS**.

2016-cı il ərzində Azərbaycanda yeni İİV-ə yoluxma faktı 556 nəfərdə təsdiqlənmişdir. Ümumilikdə 2016-cı ilin sonunadək Respublika QİÇS-lə Mübarizə Mərkəzində 5376 nəfər İİV-lə yaşayan insan rəsmi qeydiyyatdadır. Onlardan 72,3%-i kişi, 27,7%-i qadınlardır. QİÇS mərhələsində olanlar 1312 nəfər təşkil edir.

**Cədvəl. İnsanın immunçatışmazlığı virusunun (İİV) törətdiyi xəstəliklə xəstələnlərin sayı (nəfər)**

| | **2000** | **2010** | **2015** |
|---|---|---|---|
| İİV-in törətdiyi xəstəliklə ilk dəfə qeydə alınmış xəstələrin sayı - *cəmi* | 63 | 459 | 704 |
| | | | |
| Müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan İİV-in törətdiyi xəstəliklə xəstələrin sayı - *cəmi* | ... | 2621 | 5439 |
| - onlardan qazanılmış immunçatışmazlıq sindromu (QİÇS) ilə | **...** | 691 | 1682 |




**Azərbaycanda Respublika QİÇS-lə Mübarizə Mərkəzində qeydiyyatda olan və ölən İİV xəstələrinin sayı (1987-2016).**

| | **Say, nəfər** |
|---|---|
| İİV-ə görə qeydiyyatda olanların sayı | 5376 |
| İİV/QİÇS səbəbindən ölənlərin sayı | 788 |

**Əhalinin aktiv vərəmlə xəstələnməsi.**

| | **2000** | **2010** | **2015** |
|---|---|---|---|
| İlk dəfə qeydə alınmış xəstələrin sayı - cəmi, nəfər | 5 113 | 4 801 | 3 989 |
| onlardan: | | | |
| • ağciyər vərəmi | 4 868 | 3836 | 3107 |
| • vərəmli plevrit | … | … | 460 |
| Müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan xəstələrin sayı - cəmi, nəfər | 14 274 | 12 469 | 9 695 |

**Təlim və tədris, palliativ qayğı üzrə davamlı tibbi təhsil, məlumatlılıq**

- Palliativ qayğı ilə bağlı ilk tədris vəsaiti 7 il bundan əvvəl hazırlanmış olsa da, dərslik və kitablar nəşr edilməmişdir. Qeyd edilmiş tədris vəsaiti əsasında dərslər yalnız ATU-da onkologiya kafedrasında tədris alan tibb tələbələri üçün keçilir.
- 8-10 il əvvəl Bakı və Sumqayıtda həm evdə, həm də stasionar şəraitdə və poliklinikada palliativ qayğı xidmətləri sınaqdan keçirilmişdir.
- Əhalinin mühüm bir hissəsi hələ də bu xidmətlərin nə olduğu və nəyə xidmət etdiyi barədə dəqiq bilgiyə və məlumata malik deyil.
- Tibb işçilərinin palliativ qayğı və hospis xidmətləri, o cümlədən palliativ xəstələrin ehtiyacları barədə məlumatlılığı yetərli deyildir.
- Narkotik analgetiklərə əlçatanlıq məhduddur. Narkotik preparatların dövriyyəsi ciddi nəzarət altındadır.

**Global Morphine Consumption, 2015: (mg/capita)**

| | | |
|---|---|---|
| 1 | Canada | 117.7428 |
| 4 | USA | 60.9909 |
| 12 | United Kingdom | 22.8571 |
| 82 | Turkey | 0.8490 |
| 84 | Ukraine | 0.7040 |
| 90 | Russia | 0.5503 |
| 123 | Azerbaijan | 0.1050 |

Source: International Narcotics Control Board; World Health Organization population data

**Təklif olunan Palliativ qayğının milli modeli**

